# QARABAĞ MÜNAQİŞƏSİ

**Dr. Hatəm Cabbarlı**

**Avrasiya Təhlükəsizlik və Strateji Araşdırmalar Mərkəzinin Sədri**

Giriş

Təxminən yüz ildir davam edən Dağlıq Qarabağ problemi qəti şəkildə həll edilmədiyi zamana qədər Azərbaycanın ciddi problemlərindən biri olaraq qalacaqdır. Bu problemin qəti şəkildə həll edilməsi dedikdə, Azərbaycanın ərazi bütünlüyü çərçivəsində həll olunması nəzərdə tutulur. Ermənilər hər hansı bir şəkildə istədiklərinə nail olsalar başda Naxçıvan olmaqla, Gəncəbasar bölgəsinin bəzi rayonlarına qarşı yenidən iddia qaldıracaqları şübhəsizdir. Son zamanlarda qondarma erməni soyqırımı təbliğat kompaniyasının davam etdiyi nəzərə alınarsa, qondarma DQR-in tanınması istiqamətində də soyqırımı nümunəsində olduğu kimi bir təbliğat kompaniyasına başlaya bilər.

Azərbaycan üçün təhlükəli olan bir digər ciddi məsələ də, problemin adının qoyulmasıdır. “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi” ifadəsinin rəsmi sənədlərdə yazılmasıyla Azərbaycan sanki erməni iddialarını qəbul etmiş olur. Problemə bu cür baxış Dağlıq Qarabağın tarixən kimə aid olması faktını əhəmiyyətli dərəcədə zəiflədir. Azərbaycan,

problemi “Ermənistanın Azərbaycan torpaqlarını işğalı” kimi dəyərləndirməli, rəsmi sənədlərdə bu cür yazılmalıdır. Çünki, məsələ Dağlıq Qarabağın sərhədlərini çoxdan aşıb və Ermənistan rəsmən Azərbaycan torpaqlarını işğal edib. Bu problemdə əhəmiyyətli olan məqamlardan biri də tərəflərin məsələyə müxtəlif aspektlərdən yanaşmasıdır.

1. Problemin hüquqi aspektləri

1.1. Ermənistanın arqumentləri

Dağlıq Qarabağ münaqişəsi başladıqdan sonra Ermənistan problemə münasibətdə bir müddət bölgənin Ermənistana birləşdirilməsi, daha sonra isə xalqların öz müqəddəratını təyin etməsi (self determination) məsələsini ön plana çıxarmışdır. Ermənistan eyni zamanda Azərbaycana qarşı ərazi iddialarına hüquqi bazasını təşkil etmək və mövqeyini möhkəmləndirmək üçün, Dağlıq Qarabağın heç vaxt müstəqil Azərbaycanın tərkib hissəsi olmaması barədə tezisi ilə çıxış edirlər. Bu iddiaların əsasında aşağıdakı arqumentlər dayanır:

- Birinci, müstəqil Azərbaycan Sovet İttifaqının tərkibinə daxil olanda Qarabağ onun yurisdiksiyasında deyildi və bu faktı Azərbaycanın Cənubi Qafqazın şərq hissəsinin ermənilərlə məskunlaşmış ərazilərinə, əsas etibarilə Dağlıq Qarabağa iddia etməsi, eləcə də özününkü hesab etdiyi ərazi üzərində təsirli dövlət nəzarətini həyata keçirə bilməməsi və sərhədlərinin legitimliyini əsaslandırmağa qadir olmaması səbəbindən Millətlər Cəmiyyətinin Azərbaycanı tanımaqdan imtina etməsi barədə qəbul etdiyi qərar da təsdiqləyir.[1]

• İkinci, 1991-ci ildə SSRİ-nin parçalanması prosesi çərçivəsində Dağlıq Qarabağın Azərbaycandan qanuni əsaslarla ayrılması və "Dağlıq Qarabağ Respublikası"nın yaradılması. Bu zaman "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu xüsusi olaraq vurğulanır. Sonuncuya əsasən, müttəfiq respublikalar tərəfindən Qanunla nəzərdə tutulmuş SSRİ tərkibindən çıxmaq prosedurası həyata keçirilərkən muxtar qurumlar SSR İttifaqından və tərkibindən çıxan müttəfiq respublikada qalmaq məsələsini müstəqil həll etmək, habelə öz dövlət-hüquqi statusu məsələsini qaldırmaq hüququ əldə edirdi.

• Üçüncü, Azərbaycanın sovet dövrünün hüquqi varisliyindən imtina etməsi və bununla da, həmin dövrün sərhədlərinə iddia etmək əsasından məhrum olması.

2. Azərbaycanın arqumentləri

2. 1. Azərbaycan və Ermənistanın Millətlər Cəmiyyətinə üzv qəbul edilməsi prosesində Dağlıq Qarabağ məsələsi

Britaniya qoşunlarının 1918-ci ildə Bakıya daxil olmasından sonra, Müttəfiq Dövlətləri təmsil edən general V.Tomson qonşu Zəngəzur qəzası ilə birlikdə Dağlıq Qarabağın Azərbaycanın idarəsi altında olmasını tanıdı.[2] O, Azərbaycan hökuməti tərəfindən Xosrov Sultanovun bu iki regionun da daxil olduğu Garabağ generalqubernatorluğuna qubernator təyin edilməsini də təsdiqlədi. 1919-cu ildə Dağlıq Qarabağın erməni assambleyası rəsmi olaraq Azərbaycan

hakimiyyətini tanıdı.

1918-1920-ci illərdə Azərbaycan Respublikasının bir sıra ölkələrlə diplomatik münasibətləri var idi. Onlardan bəziləri ilə qarşılıqlı münasibətlərin prinsiplərinə dair müqavilələr imzalanmış, on altı dövlət isə Bakıda öz nümayəndəliyini açmışdı.

12 yanvar 1920-ci il tarixində Paris Sülh Konfransında Müttəfiq Dövlətlərin Ali Şurası Azərbaycanın müstəqilliyini de-fakto tanıdı.

1 noyabr 1920-ci il tarixində Azərbaycan nümayəndə heyətinin başçısı Millətlər Cəmiyyətinin Baş katibinə məktubla müraciət edərək, Azərbaycan Respublikasının Təşkilata üzv qəbul edilməsi ilə bağlı ərizəsinin Cəmiyyətin Assambleyasına təqdim edilməsini xahiş etmişdir.

Baş katib 24 noyabr 1920-ci il tarixli Memorandumunda Paris Sülh Konfransındakı Azərbaycan nümayəndə heyətinə mandatın Bakıda 1920-ci ilin aprel ayına kimi hakimiyyətdə olmuş hökumət tərəfindən verildiyini qeyd etmişdir. Bununla belə, Memorandumda Azərbaycan nümayəndə heyətinin müraciət etdiyi (1 noyabr 1920-ci il) və Memorandumun dərc olunduğu tarixdə (24 noyabr 1920-ci il) Azərbaycan nümayəndə heyətinə mandat vermiş Azərbaycan Respublikası hökumətinin artıq 1920-ci ilin aprel ayından de-fakto hakimiyyətdə olmamasına xüsusi diqqət yetirilir. Daha sonra memorandumda bu hökumətin ölkənin bütün ərazisinə nəzarət etmədiyi göstərilirdi.

Bu kontekstdə, qeyd olunan Millətlər Cəmiyyəti Baş katibinin Memorandumunun ən mühüm hissəsi Hüquqi mülahizələr fəslidir. Həmin fəsildə dövlətlərin tamamilə özünüidarə edən olması tələbi də daxil olmaqla, Təşkilata yeni üzvlərin qəbul edilməsi ilə bağlı Millətlər Cəmiyyəti Nizamnaməsinin 1-ci maddəsində təsbit edilmiş şərtlər xatırladılır.

Millətlər Cəmiyyətinin müvafiq sənədləri erməni tərəfinin Millətlər Cəmiyyətinin Azərbaycanı üzvlüyə qəbul etməməsini onun Azərbaycanın Dağlıq Qarabağ üzərində hakimiyyətini tanımaması və guya ermənilərlə məskunlaşmış ərazilərə iddia etməsi ilə əlaqələndirməsi fikrini tamamilə təkzib edir. Aydındır ki, ərazisinin mühüm bir hissəsi ərizəsi Millətlər Cəmiyyətində baxıldığı bir dövrdə işğal altında olan, ərizəni təqdim edən hökuməti isə devrilmiş olan bir dövlət Millətlər Cəmiyyəti Nizamnaməsinin 1-ci maddəsinin tələblərinə əsasən, tam özünüidarəetmə qabiliyyətinə malik subyekt kimi nəzərdən keçirilə bilməzdi. Məhz bu şərtlər Azərbaycanın Millətlər Cəmiyyətinə üzv qəbul edilməsinə mane oldu.

Eyni zamanda Millətlər Cəmiyyəti aydın və tanınmış sərhədlərə, status və konstitusiyaya, sabit hökumətə sahib olmadığı üçün Ermənistanın özünü dövlət kimi tanımırdı. Nəticədə, 16 dekabr 1920-ci il tarixində Ermənistanın Millətlər Cəmiyyətinə üzvlüyə qəbul edilməsi rədd edilmişdi.

## 2. 2. Dağlıq Qarabağ Azərbaycan SSR-nin tərkibində

Müttəfiq Dövlətlərin Dağlıq Qarabağ üzərində Azərbaycanın hakimiyyətini tanıması ilə bağlı yuxarıda qeyd olunmuş faktlarla yanaşı, Sovet İttifaqı tərkibinə qatılarkən Qarabağın müstəqil Azərbaycanın yurisdiksiyası altında olmaması ilə bağlı tezis həmçinin Ermənistanın ərazi iddiaları ilə əlaqədar olaraq bu məsələyə bir neçə dəfə baxmış RK(b) Prezident MK Qafqaz Bürosunun qərarları ilə də təkzib edilmiş və özünün 5 iyul 1921-ci il tarixində keçirilmiş iclasında Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində saxlanılması barədə qərar vermişdir.[3] Eyni zamanda Azərbaycan SSR-ə Dağlıq Qarabağa geniş muxtariyyət vermək təklif olunmuşdur.

13 oktyabr 1921-ci il tarixində Qarsda RSFSR-in iştirakı ilə bir tərəfdən Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR, digər tərəfdən isə Türkiyə arasında Dostluq haqqında müqavilə imzalandı. Müqavilənin 5-ci maddəsi ilə Türkiyə, Ermənistan və Azərbaycan hökumətləri …Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi kimi yaradılmasına razı olduqlarını bildirdilər.

13 dekabr 1922-ci il tarixində Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası (ZSFSR) yaradılmışdır. Onun Konstitusiyası Naxçıvan Respublikasının bir muxtar qurum kimi Azərbaycanın ayrılmaz tərkib hissəsi olması faktını bir daha təsdiqlədi. Bu konstitusiyaya görə, muxtar respublika və vilayətlərin (Abxaziya, Acarıstan və Cənubi Osetiya) vəziyyəti dəyişməz olaraq qalırdı.

Nə Qars Müqaviləsində, nə də ZSFSR Konstitusiyasında Qarabağın dağlıq hissəsi barədə hər hansı bir qeydə rast gəlinmirdi, çünki bu bölgə rəsmi olaraq Azərbaycanın ayrılmaz hissəsi kimi tanınırdı, o cümlədən Ermənistan SSR tərəfindən.

SSRİ-nin ilk konstitusiyasının qəbul edildiyi gündən bir gün sonra, yəni 7 iyul 1923- cü il tarixində Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında Fərman dərc etdirdi.

Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtar vilayət kimi statusu 1936-cı və 1977-ci illər SSRİ Konstitusiyalarında təsbit edilmişdir.

DQMV-nin hüquqi vəziyyəti SSRİ və Azərbaycan SSR Konstitusiyalarına müvafiq olaraq, 16 iyun 1981-ci il tarixində Azərbaycan SSR Ali Soveti tərəfindən qəbul olunmuş Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Qanunla müəyyən edilirdi.

SSRİ Konstitusiyasının 78-ci maddəsinə əsasən, müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi. Müttəfiq respublikalar arasındakı sərhədlər yalnız müvafiq respublikaların qarşılıqlı razılığı əsasında və SSR İttifaqının təsdiqindən sonra dəyişdirilə bilərdi. Bu müddəa Azərbaycan və Ermənistan Konstitusiyalarında da təsbit edilmişdi.

Keçən əsrin 80-ci illərinin sonlarında DQMV-nin Azərbaycan SSR-dən ayrılması və vilayətin Ermənistan SSR-ə birləşdirilməsi istiqamətində qanunazidd qərarların qəbulu ilə əlaqədar olaraq, SSRİ Ali Soveti və onun Rəyasət Heyəti Dağlıq Qarabağ böhranı nəticəsində yaranmış vəziyyəti bir neçə dəfə müzakirə etmişdir. Keçmiş SSR İttifaqı dövlət hakimiyyətinin ali orqanı tərəfindən qəbul olunmuş qərarlarda birmənalı olaraq sərhədlərin və Azərbaycan və Ermənistan SSR-in Konstitusiyaları ilə təsbit olunmuş milli-ərazi bölgüsünün dəyişdirilməsinin qeyri-mümkün olduğu etiraf olunurdu.[4]

Beləliklə, Dağlıq Qarabağın Azərbaycan SSR-dən Ermənistan SSR-in xeyrinə rəsmi olaraq 20 fevral 1988-ci il tarixindən başlamış ayrılması prosesi SSRİ Konstitusiyasının açıq-aşkar pozulması ilə müşayiət olunmuş və bununla da heç bir hüquqi nəticəsi olmamışdır.

Dağlıq Qarabağın ayrılmasına qanuni don geydirmək məqsədilə erməni tərəfinin 2 sentyabr 1991-ci ildə etdiyi növbəti cəhd bu yanaşmanın doğruluğunu təsdiq edir. Əvvəlki bütün qərarlardan fərqli olaraq, həmin gün Dağlıq Qarabağ Respublikasının elan olunması Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu ilə əsaslandırılırdı.

Hər şeydən əvvəl qeyd olunmalıdır ki, bu Qanunun məqsədi SSRİ məkanında qarşılıqlı münasibətləri müttəfiq respublikaların SSRİ tərkibindən çıxacağı halda riayət etməli olduğu

müəyyən proseduranın qurulması vasitəsilə tənzimləmək idi. Müttəfiq respublikanın SSRİ tərkibindən çıxması həmin respublika əhalisinin öz iradəsini referendum yolu ilə azad ifadə etməsi əsasında həyata keçirilə bilərdi ki, bu referendumun da keçirilməsi barədə qərar müttəfiq respublikanın Ali Soveti tərəfindən qəbul edilirdi.

Eyni zamanda bu Qanuna əsasən, tərkibində muxtar respublikalar, muxtar vilayətlər və muxtar mahallar olan müttəfiq respublikada referendum hər muxtariyyət üzrə ayrıca keçirilməli idi. Bu muxtariyyətlərin xalqlarına SSR İttifaqında və ya onun tərkibindən çıxan müttəfiq respublikada qalmaq məsələsini müstəqil həll etmək, habelə öz dövləthüquqi statusu məsələsini qaldırmaq hüququ verilirdi.

Qeyd etmək lazımdır ki, müttəfiq respublika yalnız mürəkkəb və çox mərhələli prosedura keçdikdən və nəticədə SSRİ xalq deputatları Qurultayı müvafiq qərar qəbul edildikdən sonra SSRİ tərkibindən çıxmış hesab oluna bilərdi.

Lakin SSRİ-nin beynəlxalq hüququn subyekti kimi mövcudluğuna xitam verildiyi ana qədər qeyd olunan qanun tətbiq olunmadı və müvafiq olaraq, heç bir hüquqi nəticəsi də olmadı. Belə ki, heç bir müttəfiq respublika, o cümlədən Azərbaycan və Ermənistan, Qanunda nəzərdə tutulmuş İttifaqdan çıxmaq prosedurasından istifadə etmədi.

Azərbaycan Respublikası öz müstəqilliyini tam mənada əldə edənə və beynəlxalq ictimaiyyət tərəfindən tanınana qədər Azərbaycan SSR DQMV-nin 26 noyabr 1991-ci il tarixinədək

mövcud olduğu ərazi Azərbaycanın tərkib hissəsi olaraq qalmaqda davam edirdi.[5]

2.3. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası kontekstində ərazi və sərhədlərə münasibətdə hüquqi varislik

SSRİ-nin dağılmasından sonra uti possidetis juris (Varis dövlət tərəfindən keçmiş imperiyanın varlıqlarına yönəlik suverenlik haqqı və xüsusilə də torpaq tələbləri ilə bağlı siyasi-qanundur) beynəlxalq-hüquqi doktrinası yenicə müstəqillik əldə etmiş dövlətlərin sərhədlərinin beynəlxalq, regional və milli legitimləşdirilməsinin əsasını təşkil etdi.

Uti possidetis juris doktrinasına görə, Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdiyi andan etibarən hüdudlarına DQMV-nin də daxil olduğu keçmiş Azərbaycan SSR-in inzibati sərhədləri beynəlxalq sərhəd hesab olunur və beynəlxalq hüquq tərəfindən qorunur. Qeyd olunan fikir BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi məlum qətnamələrdə də öz əksini tapmışdır.

1918-1920-ci illərdəki dövlət müstəqilliyinin bərpasını bəyan etməklə o dövrdə mövcud olmuş ADR-in hüquqi varisinə çevrilməsiylə Azərbaycanın guya sovet dövründəki sərhədlərə iddia etmək əsaslarından məhrum olması barədə erməni tərəfinin irəli sürdüyü tezisə gəldikdə isə, burada diqqət Müqavilələrə münasibətdə dövlətlərin hüquqi varisliyi haqqında Vyana Konvensiyasının 11-ci maddəsinə yönəldilməlidir. Belə ki, bu maddəyə əsasən, dövlətlərin hüquqi varisliyi: a) müqavilə ilə müəyyən olunmuş sərhədlərə şamil edilmir …

Başqa sözlə, bilavasitə SSRİ-nin onun tərəfindən bağlanmış beynəlxalq müqavilələrlə müəyyən edilmiş sərhədlərinə aid olmasına baxmayaraq, qeyd olunan müddəa özündə, faktiki olaraq, hüquqi varislikdən asılı olmayaraq, mövcud sərhədlərin olduğu kimi saxlanılmasına münasibətdə konseptual beynəlxalq-hüquqi yanaşmanı ehtiva edir. Bu isə o deməkdir ki, suverenliyin dəyişməsi daimi xarakter daşıyan sərhədləri sarsıtmağa qadir deyildir.

Self determination məsələsinə gəlincə bu barədə beynəlxalq hüquqa müraciət etməkdə fayda vardır. Self determination haqqı ilk dəfə olaraq ABŞ prezidenti Vilsonun 1918-ci ildə elan edilən 14 maddəsi tezisində istifadə edilmişdir. Belə ki, beynəlxalq hüquqa görə self determination haqqından aşağıdakı hallarda istifadə edilə bilər:

• Ölkə daxilində siyasi, iqtisadi, ictimai və mədəni özünü idarəetmə sistemini seçə bilmək. Bunun ilk nümunəsi 14 iyul 1789-cu ildə baş verən Fransa inqilabında görmək mümkündür. Buna daxili faktor deyilir.

• Birinci və xüsusilə də ikinci Dünya Müharibəsindən sonra bu terminologiya eyni zamanda xarici faktor adını almışdır. Buna, əsasən Vilsonun 14 maddəsinin 6-cı və 7-ci tezisləri imkan versə də, bu termin ilk dəfə beynəlxalq sənədlərdə Birləşmiş Millətlər Təşkilatının 1-ci və 55-ci maddələrində ehtiva edilmişdir. Bu ifadə eyni zamanda müstəmləkə dövlətlərin müstəqilliyi (décoloni-sation)" mənasını vermişdir.  Bu haqq sadəcə başqa bir dövlətin müstəmləkəsi altında olan xalqlara şamil edilir. Azərbaycanda yaşayan ermənilər heç bir zaman müstəmləkə altında yaşamadıqları üçün qətiyyən onlara şamil edilə bilməz.

• Mövcud müstəqil bir dövlətdən ayrılmaq. Self determination haqqının bu müddəası adətən beynəlxalq hüquqda rəğbət görmür. Belə ki, bugün dünyada 184 dövlətdə 5 min etnik qrup yaşayır. Bu anlayışın qəbul edilməsi dünyada sözün həqiqi mənasında xaosun yaşanmasına səbəb ola bilər. Self determination haqqının müstəqil dövlətlərə yönəlik tətbiq edilməməsi haqqında ümumi bir razılaşma vardır. Dövlətlərin ərazi bütünlüyü və milli birlik prinsipləri daha əhəmiyyətli hesab edilməkdədir.

Yuxarıda ifadə edilənləri qısa şəkildə dəyərləndirildiyində aşağıdakı nəticəyə
gəlmək mümkündür:

1. Azərbaycanın Millətlər Cəmiyyətinə üzvlüklə bağlı ərizəsinə baxılması məsələsinin işıqlandırılması zamanı rəsmi Yerevanın açıq-aydın yol verdiyi təhriflərə və eyni zamanda, Ermənistanın Millətlər Cəmiyyətinə göndərdiyi eyni məzmunlu ərizəyə sonuncunun cavabı barədə susmasına baxmayaraq, bu təşkilatın gəldiyi nəticələr dövlətlərin sonrakı dövrdə yaranmış ərazi çərçivələrinə yenidən baxılması üçün əsas hesab oluna bilməz. Əks təqdirdə, əgər erməni tərəfinin dəlilləri ilə razılaşsaq, onda Ermənistanın özünün beynəlxalq hüquq subyektivliyi şübhə altına alına bilər.

2. SSRİ Konstitusiyasına əsasən, Dağlıq Qarabağ Azərbaycan SSR tərkibində muxtar vilayət idi. DQMV-nin hüquqi vəziyyəti SSRİ və Azərbaycan SSR Konstitusiyalarına müvafiq olaraq, 16 iyun 1981-ci il tarixində Azərbaycan SSR Ali Soveti tərəfindən qəbul edilmiş Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Qanunla müəyyən edilirdi.

3. 2 sentyabr 1991-ci il tarixində Dağlıq Qarabağ Respublikasının elan olunması SSRİ Konstitusiyasına zidd idi. Belə ki, həmin Konstitusiyaya görə, müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi, müttəfiq respublikalar arasındakı sərhədlər isə yalnız müvafiq respublikaların qarşılıqlı razılığı əsasında və SSR İttifaqının təsdiqindən sonra dəyişdirilə bilərdi. Məsələ ilə bağlı Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında 3 aprel 1990-cı il tarixli SSRİ Qanununa istinad edilməsi əsassızdır. Belə ki, SSRİ tərkibindən çıxmanın rəsmiləşdirilməsi üçün bu qanunda nəzərdə tutulmuş məcburi mexanizm nə 2 sentyabr 1991-ci il tarixinə qədər, nə də ondan sonra Azərbaycan tərəfindən tətbiq edilməmişdir.

4. Muxtar Vilayət 26 noyabr 1991-ci il, yəni Azərbaycan Respublikası Ali Soveti tərəfindən onun ləğvi barədə Qanun qəbul edildiyi tarixədək mövcud olmuşdur.[6]

5. Uti possidetis juris doktrinasına əsasən, Azərbaycan Respublikası müstəqillik əldə etdiyi andan etibarən, DQMV-nin də daxil olduğu Azərbaycan SSR-in keçmiş inzibati sərhədləri beynəlxalq sərhədlər sayılır və beynəlxalq hüquqla qorunur. Bununla əlaqədar qeyd etmək lazımdır ki, SSRİ-nin süqutu ilə suverenliyin dəyişdirilməsi və keçmiş müttəfiq respublikalar tərəfindən hüquq varisliyinin elan edilməsi onların müstəqillik əldə etdikləri ana qədər mövcud olan və daimi xarakter daşıyan sərhədlərini dəyişə bilməzdi.

---

[1] Bu barədə genuş məlumat üçün baxın: Cabbarlı Hatəm, Ermənistanın xarici siyasəti (1991-2012), Bakı: ATSAM,

2014.

[2] Tadeusz Swietochowski, **Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in Moslem Community**, Cambridge, 1985, p. 143.

[3] Araz Aslanlı, **Karabağ sorunu ve Türkiye-Ermenistan ilişkileri**, Berikan Yayınevi, 2015, s. 37-38.

[4] Hatem Cabbarlı, "Dağlık Karabağ Sorununun Çözümünde Son Gelişmeler", Stratejik Analiz, 2005

[5]Araz Aslanlı, "Kafkasyada Güvenlik ve İstikrara En Büyük Tehdit: Karabağ Sorunu", Der: Cavid VELIYEV, Araz ASLANLI, **Güney Kafkasya: Toprak Bütünlüğü, Jeopolitik Mücadeleler ve Enerji**, Ankara, Berikan Yayınevi, 2011, s. 158.

[6] Araz Aslanlı, "Kafkasyada Güvenlik ve İstikrara En Büyük Tehdit", Der: Cavid VELIYEV, Araz ASLANLI, **Güney Kafkasya: Toprak Bütünlüğü, Jeopolitik Mücadeleler ve Enerji**, Ankara, Berikan Yayınevi, 2011, s. 158.